**Maddə 116. Qısa idxal bəyannaməsini əvəz edən gömrük bəyannaməsi**

116.3. Beynəlxalq müqavilələr çərçivəsində həyata keçirilən beynəlxalq daşımalar zamanı elektron informasiya sistemləri vasitəsilə mallar və nəqliyyat vasitələri barədə əvvəlcədən təqdim edilən ilkin məlumatlar qısa idxal bəyannaməsinə bərabər tutulur.

**Qeyd:** *Gömrük Məcəlləsinin mövcud redaksiyasında beynəlxalq müqavilələr çərçivəsində həyata keçirilən beynəlxalq daşımalar zamanı elektron informasiya sistemləri vasitəsilə mallar və nəqliyyat vasitələri barədə əvvəlcədən təqdim edilən ilkin məlumatların qısa idxal bəyannaməsinə bərabər tutulması ilə bağlı norma mövcud deyildir. Gömrük xidməti tərəfindən beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilən norma beynəlxalq ticarət dəhlizindən istifadə edən şəxlər üçün tələb olunan məlumat və sənədlərin minimuma endirilməsinə, sürətli keçidin təmin edilməsinə və gömrük rəsmiləşdirilməsinin asanlaşdırılmasına xidmət edir.*

**Maddə 175-1. Tranzit xüsusi gömrük proseduru üzrə öhdəliklər**

175-1.6. Tranzit daşımaları zamanı mallar gömrük nəzarəti altında bir nəqliyyat vasitəsindən boşaldılıb digər nəqliyyat vasitəsinə yüklənərsə və həm idxal həm ixrac əməliyyatları eyni gömrük orqanı ərazisində həyata keçirilərsə, bu zaman malların gömrük orqanlarına bəyan edilməsi üçün **yalnız bir gömrük bəyannaməsi verilir.**

175-1.7. Tranzit xüsusi gömrük proseduru ilə bağlı sadələşdirmə tədbirlərini **müvafiq icra hakimiyyəti orqanı** müəyyən edir.

**Qeyd:** *Beynəlxalq təcrübədə "transshipment və ya trans-shipment, Türkiyə təcrübəsində "transbordement" olaraq öz təsbitini tapan bu yanaşma tranzit daşımalarda malların gömrük orqanlarına bəyan edilməsi prosesində yalnız bir gömrük bəyannaməsinin verildiyi halların müəyyən edilməsi ilə bağlıdır ki, bu da Gömrük Məcəlləsinə əlavə edilməsi nəzərdə tutulan digər yeniliklərdən, mütərəqqi tənzimləmələrdən biridir.*

**Maddə 270. Gömrük ödənişlərinin qaytarılması barədə müraciət**

270.1-ci maddədə "1 (bir)" sözləri **"3 (üç)"** sözləri ilə əvəz edilsin.

**Qeyd:** *Gömrük Məcəlləsinin 270.1-ci maddəsinə əsasən g*ömrük ödənişlərinin bu *Məcəllənin 267.1-ci maddəsində göstərilən hallar əsasında qaytarılmalı olduğunu hesab edən ödəyici və ya onun nümayəndəsi gömrük ödənişlərinin ödənildiyi tarixdən 1 (bir) il ərzində gömrük orqanına müvafiq ərizə ilə müraciət edə bilər. Təklif edilən bu dəyişiklik müraciətin 1 (bir) il deyil, 3 (üç) il ərzində edilməsini mümkün edir ki, bu tənzimlənmə ilə gömrük orqanları vətəndaş və xarici ticarət iştirakçılarının hüquqlarının onlar tərəfindən qorunması niyyətini bəyan edir.*